UOT 371

Elnurə Hikmət qızı Quliyeva [79]

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ QRUP VƏ CÜTLƏRLƏ İŞ

Dil öyrənmək insanların ünsiyyət qurması, digər elm sahələrində uğur qazanması və sürətlə inkişaf edən dünya ilə ayaqlaşması üçün vacib bir bacarıqdır. Məhz buna görə də innovativ təlim metodlarının düzgün tətbiqi daha çox tələbəyönümlü, dinamik və səmərəli tədris mühitinin yaradılmasına səbəb olur. Müasir tədris yanaşmaları tələbələrin dil bacarıqlarını yalnız qrammatika və lüğət üzərində deyil, eləcə də, praktiki ünsiyyət, yaradıcı düşüncə və əməkdaşlıq bacarıqları üzərində inkişaf etdirməyə yönəlmişdir. İnnovativ metodların tətbiqi tələbələrə daha çox praktik imkanlar yaradır. İngilis dilinin tədrisi keyfiyiyyətinin yüksəldilməsinə birbaşa təsir edən qrup və cütlərlə iş kimi təlim formaları tələbələrin fərqli baxışlardan öyrənməsinə şərait yaradır və onlara real həyat ssenariləri tətbiq etməklə ingilis dilini öyrənməyə təhrik edir.

İngilis dilinin tədrisi zamanı qrup işinin uğurlu tətbiqi üçün müxtəlif formalardan istifadə olunur. Hər bir forma tam təlimin məqsədlərinə və auditoriyada mövcud olan şəraitə uyğun olaraq tətbiq edilməlidir. "Qrup işinin düzgün tətbiqi yalnız tələbələrin öyrənmə prosesinə olan marağını artırmaqla məhdudlaşmır, həm də onların gələcək əməkdaşlıq etmə bacarıqlarını formalaşdırmağa zəmin yaradır. Müxtəlif formalarından istifadə etməklə müəllimlər fəal və maraqlı dərs mühitini təmin edirlər" [1, s.137].

Qrup işi fərqli fikirlərin müzakirəsi, problemlərin həlli və yaradıcı yanaşmaların təşviqi üçün əlverişli bir mühit yaradır. İngilis dilinin tədrisində qrup işi, xüsusilə danışıq, dinləmə, yazı və oxu kimi əsas dil bacarıqlarının inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir. Qrup işinin mahiyyəti təkcə biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin tənqidi düşüncə, problem həll etmə, liderlik və sosial bacarıqlarını inkişaf etdirmək məqsədini daşıyır. Bu yanaşma tələbələrin dil öyrənmə prosesində fəallığını artırır və öyrənilən biliklərin uzunmüddətli yadda saxlanmasını təmin edir.

Qrup işi təkcə biliklərin öyrədilməsi deyil, həm də öyrənənlərin sosial bacarıqlarını inkişaf etdirmək və onları gələcəkdə kollektiv işə hazırlamaq üçün təsirli bir vasitədir. İngilis dilinin tədrisində bu yanaşma həm dilin praktik istifadəsini, həm də tələbələrin müxtəlif dil mühitlində səmərəli ünsiyyət qurma bacarığını gücləndirir.

Qrup işləri tələbələrin həm fərdi, həm də kollektiv şəkildə inkişaf etməsinə imkan verən çoxşaxəli bir tədris yanaşmasıdır. Qrup işlərinin uğuru təkcə ünsiyyət bacarıqlarının inkişafı, tənqidi və analitik düşüncənin formalaşması, özünəinamın artması və sosial əlaqələrin güclənməsi deyil, eyni zamanda şəxsin peşəkar səviyyədə inkişafına da töhfə verdiyini açıq şəkildə göstərir. Buna görə də "tədris prosesində qrup işlərinə daha çox yer ayırmaq lazımdır ki, bu da tələbələrin potensial yaradıcı imkanlarını, tənqidi təfəkkürünü, kreativ düşüncəsini tam şəkildə ortaya çıxarmağa imkan yaradır" [2, s.125]. .

Müasir tədris prosesində xarici dillərin tədrisi keyfiyyətini yüksəltmək üçün əsasən böyük və kiçik qrupların tətbiqi geniş vüsət almışdır. Böyük qrupların say tərkibi 6 və ya daha çox tələbədən ibarət olur.Kiçik qrupların tərkibi əsasən2-5 tələbədən ibarət olur. Dilin öyrənilməsində müxtəlif tətbiq nümunələri, qarşılılqılı debatlar, rollu oyunlar, yazı və redaktə işləri cütlər və qruplarla uğurla aparıla bilər. Belə ki, ingilis dilinin tədrisi zamanı ardıcıl olaraq cütlərlə işin aparılması dərsin səmərəliliyinə öz müsbət təsirini göstərir.

Cütlərlə iş tələbələrin fərdi ehtiyaclarını və bacarıqlarını daha yaxşı nəzərə almağa imkan verir. Kiçik qruplarla müqayisədə cütlərdə işləmək tələbələrə daha çox vaxt və şərait yaradır ki, onlar öz potensiallarını tam ifadə edə bilsinlər. Hər bir tələbə cütlük şəklində daha çox danışmaq və öz fikirlərini bölüşmək, dialoqlar aparamaq imkanı əldə edir.

Cütlərlə iş tələbələri birbaşa qarşılıqlı əlaqəyə, ünsiyyətə təşviq edir, bu da öyrənmə prosesini daha canlı, səmərəli və maraqlı edir. Onlar müxtəlif mövzuları birlikdə müzakirə edərkən həm tənqidi düşünmə, həm də yaradıcı təəfkkür, adekvat yanaşma bacarıqlarını inkişaf etdirirlər. Bu interaktivlik dil öyrənmədə daha yaxşı nəticələr əldə etməyə imkanlar yaradır.

Cütlərlə işləmək tələbələrdə öyrənmə prosesinə qarşı daha çox məsuliyyət hissi yaradır. Onlar yalnız öz şəxsi nailiyyətlərinə deyil, həm də tərəfdaşının öyrənmə prosesinə də dəstək göstərməyə çalışırlar. Bu həm fərdi, həm də komanda bacarıqlarını da inkişaf etdirir.Hər iki təlim forması tələbələrə dil bacarıqlarını praktiki şəkildə inkişaf etdirmək və real həyat ssenarilərində istifadə etmək üçün geniş imkanlar yaradır.

[79] H. Əliyev adına Hərbi İnstitutun Xarici dillər kafedrasının müəllimi eq634061@gmail.com orchid id-0009-0000-1846-7475 0505807063

Cütlərlə iş təlim formaları tələbələrə dilin bütün aspektlərini – danışıq, yazı, dinləmə və oxu – daha praktik şəkildə tətbiq etmələrinə imkan yaradır. Qrup və ya cütlərlə tapşırıqlar vasitəsilə tələbələr, xüsusən də real həyat ssenarilərini təqlid edən tapşırıqlarda, dilin gündəlik istifadəsini öyrənirlər. Məsələn, bir mövzu ətrafında müzakirə zamanı tələbələr qrammatika, tələffüz və söz bazasını inkişaf etdirərək dil bacarıqlarını praktik şəkildə tətbiq edə bilirlər.

**İngilis dili tədrisində qrup işi və cütlərlə işin üstünlükləri və praktiki tətbiqi vasitələri**metodları haqqında deyə bilərik ki, bu interaktiv metodlarilk növbədə tələbələr arasında xarici dil mühitini yaratmış olur və tələbələr arasında ingilis dilində fəal ünsiyyətin yaranmasına səbəb olur.

Qrupun dəstəyi ilə tələbələrin özünəinamı artırır və sosial emosional bacarıqlarını gücləndirir. Qruplar müxtəlif fikirləri birləşdirərək yaradıcı həll yolları təklif edirlər.

**Tələbələrin bir-biri haqqında rəy verməsi**metodu da yalnız fərdi inkişafi deyil, həm də qrup dinamikasını gücləndirir. Tələbələr bir-biriləri ilə daha açıq və dürüst ünsiyyət qurur ki, bu zaman həmrəylik hissi yaranır və qrup daxilində öyrənmə mühiti daha da səmərəli olur. Nəticədə hər bir tələbə həm xarici dil biliklərini inkişaf etdirir, həm də bu bilikləri real həyatda tətbiq etmək bacarığına yiyələnirlər.Tələbələrin bir-biri haqqında rəy verməsi yalnız fərdi inkişafi deyil, həm də qrup dinamikasını gücləndirir. Tələbələr bir-biriləri ilə daha açıq və dürüst ünsiyyət qurur, həmrəylik hissi yaranır və qrup daxilində öyrənmə mühiti daha da səmərəli olur. Bu zaman hər bir tələbə həm xarici dil biliklərini inkişaf etdirir, həm də bu bilikləri real həyatda tətbiq etmək bacarığına yiyələnirlər. Bu proses öyrənmə zamanı tələbələrin motivasiyasını artırır və davamlı irəliləyişə şərait yaradır.

**Öyrənmə və dinləmə bacarığını inkişaf etdirərkən qrupun və ya tərəfdaşının çıxışlarını diqqətlə dinləməklə bağlı məşqlər, təmrinlər** tələbələrdə həm fikri cəmələmə, həm də anlama səviyyəsini xeyli dərəcədə artırır. Bu hallar ümumən tələbələrin xarici dil biliklərini daha praktik və həyatla əlaqəli şəkildə mənimsəməsinə şərait yaradır.

Bu təlim formalarının üstünlükləri arasında həmçinin daha şəffaf qiymətləndirmə və fikir mübadiləsi prosesi də mövcuddur. Müəllimlər rəqəmsal alətlər vasitəsilə tələbələrin fəaliyyətini daha dəqiq izləyə, onların zəif tərəflərini müəyyən edə və hansı sahələri daha çox təkmilləşdirmələri üçün tovsiyələrini verir. Real həyat ssenarilərini oynama tələbələrin dil bacarıqlarını praktiki olaraq sıx tətbiq etməsini təmin edir. Müəllim tələbələrə müxtəlif situasiyalar təqdim edərək həmin situasiyaların hər birində məhz onlardan həmin dilə uyğun davranış və bildikləri dil səviyyəsinə uyğun dil istifadə etmələrini tələb edir. Layihə əsaslı tədris tələbələrin dərin tədqiqat və analitik düşüncə qabiliyyətlərini inkişaf etdirir. Bu təlim formaları çərçivəsində tələbələr müəyyən mövzu üzrə araşdırma aparmalı, məlumatları təhlil etməli və əldə etdikləri nəticələri təqdim etməlidirlər.

"Qrup işi zamanı video və podkast yaratmaq da müasir tdəris prosesinin ayrılmaz bir hissəsinə çevrilməkdədir. Bu təlim formalarının tətbiqi zamanı tələbələrin yalnız dil bacarıqları artırmır, həm də öyrənmə prosesi daha canlı və təsirli olur"[3, s.21].

Cütlərlə iş zamanı tələbələr həm öz səhvlərini düzəltmək, həm də digər cütlüklərin fikirlərinə münasibət billdirmək imkanı qazanırlar və beləliklə, onların rəy vermə bacarığı da inkişaf etmiş olur.

Cütlərlə iş zamanı müəllimin hədəflərindən biri də tələbələrlə əməkdaşlıq təcrübəsini aşılamaqdır. Tələbələr birgə işləməklə bir-birinə dəstək olur, çətinliklərin öhdəsindən daha asanlıqla gəlirlər. Cütlüklərlə işləyərkən tələbələr öz yaşıdlarından öyrənərək daha çox motivasiya qazanır və dil istifadəsinə qarşı qorxularını aradan qaldırırlar

**Dialoqlar qurmaq** ingilis dili dərslərində tələbələrin real həyatda qarşılaşa biləcəyi situasiyalar üçün ünsiyyət bacarıqlarını təkmilləşdirməyə yönəlmiş praktik və interaktiv bir üsuldur. Bu fəaliyyət tələffüz, qrammatika, söz ehtiyatı və spontan nitq bacarıqlarını inkişaf etdirir, eyni zamanda tələbələrə gündəlik həyatda dil maneələrini aşmaqda bilavasitə dəstək olur. Tələbələr müəyyən bir mövzuya uyğun qısa dialoqlar hazırlayır və onları təqdim edir. "Dialoqlar tələbələrin gündəlik həyat situasiyalarında ünsiyyət bacarıqlarını inkişaf etdirməyə yönəlmiş ən səmərəli mitodlardan biridir"[4, s.25].

Yekun olaraq deyə bilərik ki, interaktiv və innovativ metodlar sırasında qrup və cütlərlə iş metodlarının müxtəlif növləri və üsulları təlim prosesinə, təlimin inteqrasiyası və tədrisin interaktivliyini, səmərəliliyini xeyli dərəcədə artırır. İngilis dilinin tədrisində dil mühitinin yaradılamsında, ingilis dilində ünsiyyət və dilaoqların qurulmasında müəllimlərin cütlər və qruplar metodundan geniş istifadə etmələri tədrisin bu istiqamətdə keyfiyyətini xeyli dərəcədə yüksəltmiş olacaqdır.

**Ədəbiyyat**

1.Hüseynzadə, R., L., Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.

2. Abdullayev, C. (2021). *Rol oyunlarının dil öyrənməsinə təsiri: İnteraktiv öyrənmə strategiyalarının araşdırılması//* Tətbiqi Dilçilik Jurnalı, 34(2), 87-102. https://doi.org/xxxxxx

3.Quliyev, R., & Əliyeva, S. (2019). *Heterogen qrup işi vasitəsilə dil öyrənmənin təkmilləşdirilməsi: Bir araşdırma.//* Beynəlxalq Dil Araşdırmaları Jurnalı, 15(3), 45-62. https://doi.org/xxxxxx

4.Hüseynov, A., & Məmmədov, M. (2020). *"Düşün-Cütlə İşlə-Paylaş" metodunun ikinci dil öyrənməsinə təsiri//* Dil Tədrisi Araşdırmaları jurnalı, 28(1), 120-138. https://doi.org/xxxxxx

**Xülasə**

Dil öyrənmək ünsiyyət, akademik səviyyədə uğur və sürətlə dəyişən dünyaya uyğunlaşmaq üçün vacibdir. İnnovativ təlim metodları, xüsusən də qrup və cütlərlə iş, dinamik və səmərəli tədris mühiti yaradır. Qrup işi əməkdaşlıq, tənqidi düşünmə və real həyat ssenarilərinə uyğunlaşmanı təşviq edərək dil öyrənməyi daha maraqlı edir. Böyük və kiçik qrupların öz üstünlükləri var: böyük qruplar müxtəlif saylı fikirləri cəmləyir, kiçik qruplar isə fərdi diqqətə imkan yaradır. Cütlərlə iş birbaşa ünsiyyət, məsuliyyət hissi yaradır və dil bacarıqlarının inkişafına kömək olur. Lakin passiv tələbələr, dominant qrup üzvləri və fərqli dil səviyyələri kimi çətinliklər tədris prosesini zəiflədə bilər. Müəllimlər bu çətinlikləri idarə edərək qrup və cüt işinin səmərəliliyini artırmalıdır. Rollu oyunlar, müzakirələr və birgə yazı tapşırıqları kimi praktiki tətbiqlər tələbələrin dil bacarıqlarını təkmilləşdirir. Araşdırmalar göstərir ki, bu təlim formaları tələbələrin motivasiyasını, iştirakını və dil biliklərini artırır. Nəticədə qrup və cütlərlə iş ünsiyyət bacarıqlarını, özünə inamı və komanda işini gücləndirərək dil öyrənmə prosesini həm effektiv, həm də maraqlı edir.

**Açar sözlər:**Qrup işi, cütlərlə iş, dil maneəsi, spontan, qrup müzakirəsi, elmi yanaşma, fərdi ehtiyaclar

**Group and pair work in teaching English**

**SUMMARY**

Learning a language is crucial for communication, academic success, and adapting to a rapidly evolving world. Innovative teaching methods, particularly group and pair work, create a dynamic and efficient learning environment. Group work encourages collaboration, critical thinking, and real-life scenario applications, making language learning more engaging. Various formats, such as large and small groups, offer unique benefits: large groups foster diverse perspectives, while small groups allow for more personalized attention. Pair work enhances student engagement by providing direct interaction, encouraging accountability, and refining language skills. However, challenges like passive learners, dominant members, and differing proficiency levels can hinder effectiveness. Teachers must manage these dynamics to maximize the benefits of group and pair work. Practical applications, such as role-playing, discussions, and collaborative writing, enhance students' proficiency. Research highlights increased motivation, participation, and linguistic improvement with these methods. Ultimately, integrating group and pair work in language instruction fosters communication skills, self-confidence, and teamwork, making language learning both effective and engaging.

**Key words:**Pair work, group work, a language barrier, spontan, group discussion, a scientific approach, individual needs.

**Групповая и парная работа в преподавании английского языка**

**Резюме**

Изучение языка играет важную роль в общении, академическом успехе и адаптации к быстроменяющемуся миру. Инновационные методы обучения, особенно групповая и парная работа, создают динамичную и эффективную среду обучения. Групповая работа способствует сотрудничеству, критическому мышлению и практическому применению языка. Различные форматы, такие как большие и малые группы, имеют свои преимущества: большие группы способствуют разнообразию взглядов, а малые группы позволяют уделять больше внимания каждому студенту. Парная работа усиливает вовлеченность, способствует ответственности и улучшает языковые навыки. Однако такие проблемы, как пассивные студенты, доминирующие участники и различия в уровне владения языком, могут снижать эффективность.

Преподаватели должны управлять этими динамическими процессами для достижения максимального эффекта. Практические методы, такие как ролевые игры, дискуссии и совместное написание текстов, повышают уровень владения языком. Исследования показывают, что использование этих методов увеличивает мотивацию, участие и улучшает языковые навыки. В конечном итоге групповая и парная работа способствует развитию коммуникационных навыков, уверенности в себе и умению работать в команде, делая процесс изучения языка эффективным и увлекательным.

**Ключевые слова:**Групповая работа, работа в парах, языковой барьер, спонтанный, групповое обсуждение,научный подход, индивидуальные потребности.

**Rəyçi:** Rüfət Lətifoğlu Hüseynzadə. Pedaqojielmlər doktoru, professor, Əməkdar Müəllim.